Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Qibləgahı həqiqət olan şair - Qabil

**Qabil İmamverdiyevin 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2021**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,**
*Əməkdar mədəniyyət işçisi*

**Qibləgahı həqiqət olan şair -** Qabil İmamverdiyevin 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS -nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed. Ruhiyyə Məmmədli ixt.red. və burax. məsul Ş. Qəmbərova. - Bakı: F.Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2021. - 29 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

# Giriş

Xalq şairi Qabil haqqında danışarkən onun təmizlik, obyektivlik, doğruluq, ədalətlilik, əqidəlik... və özünün dediyi kimi qibləgahı həqiqət məramlı bir şəxsiyyət bütövlüyü ilə gözümüzün önündə canlanır. Fəal həyat mövqeyi və hadisələrə obyektiv münasibəti ilə seçilən şair ana dilimizin bədii imkanlarından məharətlə istifadə edərək poeziyanın mövzu baxımından rəngarəng nümunələrini yaratmışdır. Şairin lirizm, psixoloji ovqat, incə yumor, aydın səlis dil, dərin məzmunu ilə səciyyələnən şeirləri oxucuların qəlbinə həmişə yol tapmışdır. Yaradıcılıq dünyası tamamilə özünəməxsus olan, öz dəsti-xəttilə heç kəsə bənzəməyən, sarsılmaz vüqarlı, qətiyyətli qələm sahibi bir ustad Qabil poeziyası müasir, zəngin Azərbaycan poeziyası ənənələrinə sadiq novator poeziyadır. Onun poeziyasında azad düşüncə, realist fikir və mübarizə ruhu vəhdət təşkil edir. Xalq şairi Qabilin xalqımızın keçmişindən, bugünündən bəhs edən, böyük təsir gücünə malik olan, həyat həqiqətlərinin realist təsvirini verən və ciddi ictimai - əxlaqi problemlər qaldıran yaradıcılığı insanlarımıza vətəndaşlıq hissilərinin və mübarizlik ruhunun aşılanmasında mühüm xidmətlər göstərmişdir. Onun lirikası dilinin axıcılığı, rəvanlığı ilə həmişə seçilmişdir. Qabil parlaq istedadı və qüdrətli sənətkar təxəyyülü ilə dövrümüzün ən çox sevilən, oxunan və sayılan şairlərindəndir. Onun yaradıcılıq yolu şəxsiyyəti ilə daim həmahəng olmuşdur. Daim poetik duyğularla qəlbində Vətəninə, millətinə tükənməz məhəbbəti olan Qabil böyük ictimai hisslər, duyğularla, gərgin zəhməti və yaradıcılıq axtarışları, canlı həyat müşahidələri ilə vicdanla xalqına xidmət etmişdir.

## Həyat və yaradıcılığı

Çağdaş Azərbaycan şeirinin ən görkəmli nümayəndələrindən biri Qabil 1926-cı il avqustun 12-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi başa vurduqdan sonra 1944-1948-ci illərdə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində ali təhsil almışdır. O, 1954-56-cı illərdə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunun ali ədəbiyyat kurslarında oxumuşdur. Əmək fəaliyyətinə 1949-cu illərdə Yardımlı rayonunda və Bakı şəhərində orta məktəb müəllimi və Azərbaycan Dövlət Pedoqoji İnstitutunda laborant kimi başlayan Qabil 1951-1953-cü illərdə "Azərbaycan müəllimi" qəzetinin redaksiyasında şöbə müdiri, 1954-cü ildə "Kommunist" qəzeti redaksiyasında tərcüməçi-redaktor, 1957-1958-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi-dram verilişləri redaksiyasının məsul redaktoru, 1960-1972-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin redaksiyasında poeziya şöbəsinin müdiri, 1975-1979-cu illərdə "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi və baş redaktor vəzifələrində işləmişdir. Qabilin yaradıcılığı müasir Azərbaycan ədəbiyyatının daha da zənginləşdirmişdir. Onun xalqımızın keçmişindən, bu günündən bəhs edən, böyük təsir gücünə malik olan, həyat həqiqətlərinin realist təsvirini verən əsərləri vətəndaşlıq hisslərinin və mübarizlik ruhunun aşılanmasında mühüm xidmətlər göstərmişdir. "Gəl baharım" adlı ilk şeiri 1944-cü ildə "Ədəbiyyat" qəzetində çap olunmuşdur. 1950-ci ildə isə "Səhər açılır" kitabı işıq üzü görmüşdür. Onun "Mənim mavi Xəzərim" (1959), "Küləkli havalarda" (1964), "Qoy danışsın təbiət" (1966), "Vətəndaş sərnişinlər" (1973) və s. kitabları oxucular tərəfindən maraqla qarşılanmışdır. Qabilin ədəbi fəaliyyəti layiqincə qiymətləndirilmişdir. O, bir sıra

fəxri ad və medallarla, o cümlədən Azərbaycan Respublikasının ali dövlət mükafatları "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdur. Bütün həyatı, yaradıcılığı və qəlbi ilə Azərbaycana bağlı olan, haqq-ədalətihər şeydən uca tutan şair böyük şəxsiyyət idi. Qabil oxucular tərəfindən həmişə oxunan, əzbərlənən, dillər əzbəri olan "Səhv düşəndə yerimiz", "Qarışdırma", "Təmizlik", "Gülləbaran eylədilər", "Nəsimi bazarında", "Məhəbbət deyil","Türkün qəbri", "Gedən yerim olaydı" kimi şeirləri, "Nəsimi" kimi fəlsəfi poemasıilə şöhrət qazanmışdır. Qabilin "Nəsimi" poeması ədəbiyyatımızın qiymətli nümunələri sırasına daxil olmuşdur. Adından göründüyü kimi əsər orta əsrlərdə yaşamış böyük Azərbaycan şairi İmadəddin Nəsimiyə həsr olunmuşdur. "Nəsimi" poemasında şair təkcə bir şairin acı taleyini, faciəsini deyil, həm də dövrün keşməkeşlərini, folklorunu, adət-ənənələrini əks etdirmişdir. Bu əsərin yazılmasına şair ömrünün 10 ilini sərf etmişdir. Belə ki, çox böyük axtarışlar aparmış, saysız- hesabsız tarixi mənbələr oxumuş, şairin anadan olduğu Şamaxını, əqidə mübarizələrində qol-qanad açdığı Bakını, özünə həmfikirlər axtardığı Türkiyəni, Misiri, Suriyanı gəzmiş, Nəsiminin faciəli ölümü baş vermiş Hələb şəhərində onun məzarını ziyarət etmişdir. Şair hətta 1974-cü ildə Nəsiminin 600 illik yubileyi ərəfəsində Nəsiminin məzar torpağından bir ovuc götürüb Nizami muzeyinə bağışlamışdı. Görkəmli şair 2007-ci il aprelin 3-də dünyasını dəyişdi və Fəxri xiyabanda torpağa tapşırıldı.

## Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimlərinin Qabil haqqında söylədikləri

Qabilin Nəsimi haqqında yazdığı mənzum roman mənim yaxşı xatirimdədir. Doğrudan da o, çox böyük iş idi və Qabil bu işi gördü. Bu həqiqətən dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil. Qabil bunun öhdəsindən gəldi.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Hər sənətdə, hər peşədə kamil ol,
Tarda Bəhram, kamançada Habil ol.
Ömər Xəyyam çox şairə söylədi:
Hünərin var, rübaidə Qabil ol!

**Anar,**
*Xalq yazıçısı*

Qabil poeziyası vətəndaş-şair poeziyasıdır, vətəndaş-şair düşüncələrinin, hiss-həyəcanlarının bəhrəsidir.

**Elçin,**
*Xalq yazıçısı*

Qabil şeirin zirvəsindədir desəm, səhv olar. Şair – özü zirvədir.

**Fikrət Sadıq,**
*Şair*

## Yubiley tədbirlərinin keçirilməsi

***Ulu Nəsimiyə doğru can atdı,***
***Bir ustad sayağı heykəl yaratdı...***
*Əmirxan Xəlilov*

Xalq şairi Qabilə ünvanlanan bu misralar böyük sənətkarımıza məhəbbətdən yoğrulan, istəkdən qaynaqlanan əvəzsiz bir ədəbi qənaət, reallığı dəqiqliklə əks etdirən bədii kəlamdır. Azərbaycan poeziyasının qüdrətli sənətkarı, xalq şairi Qabilin 95 illik yubileyi münasibətilə kitabxanada müxtəlif formada tədbirlər hazırlamaq olar. Bir çox təhsil ocaqlarında, eləcə də uşaq kitabxanalarda pandemiya ilə əlaqədar şairimizin yaradıcılığı ilə bağlı virtual şəkildə yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. İndi isə gəlin Qabilin 95 illik yubileyi münasibətilə uşaq kitabxanalarında təşkil olunacaq virtual sərgilər haqqında danışaq. **Virtual kitab sərgisi** Onlayn platformada şagirdlərin maraqlarına uyğun olaraq virtual rejimdə bütün respublika kitabxanalarının və kitabxanaçılarının ixtiyarına verilir. Müasir dövrün tələbi olan virtual kitab sərgiləri hazırlamaq ən təsirli vasitələrdən biri hesab olunur. Virtual kitab sərgisini hazırlayan zaman həm kitabxananın fondunda olan sənədlərdən, həm də elektron resurslardan istifadə etmək tövsiyə olunur. Bunun üçün ilk növbədə slaydlar hazırlanmalıdır. Kitabxanalarda şairin həyat və yaradıcılığından bəhs edən ədəbiyyatların təbliği istiqamətində təşkil oluna biləcək virtual sərgilərin təşkili məqsədəuyğundur. Şairin kitablarının sərgisini təşkil etmək kitabxanaçının ümdə vəzifələrindən biridir. Sərgidə şairin müxtəlif illərdə çap olunmuş kitabları ilə yanaşı onun haqqında çap olunmuş kitabiçi məqalələr, dövrü mətbuatda

dərc olunmuş məqalələr, foto-şəkillərnümayiş oluna bilər. Sərgilərin hazırlanmasında şair haqqında deyilən sitatlardan da istifadə etmək olar.

**Sərgi başlıqları:**

1. "Qabil əbədiyaşardır"
2. "Müdrüklük poeziyası"
3. "Qabil- böyük şair, böyük şəxsiyyət"
4. "Qətiyyətli qələmilə əbədiyyət qazanan şair"


















https://drive.google.com/drive/folders/17H3pYs5-31ASol6sG-6m7HevXYGyGquN
https://drive.google.com/drive/folders/17H3pYs5-31ASol6sG-6m7HevXYGyGquN
https://drive.google.com/drive/folders/17H3pYs5-31ASol6sG-6m7HevXYGyGquN
https://drive.google.com/drive/folders/17H3pYs5-31ASol6sG-6m7HevXYGyGquN
https://drive.google.com/drive/folders/17H3pYs5-31ASol6sG-6m7HevXYGyGquN
https://drive.google.com/file/d/1fLL8zIt0NVfzvjx6RKNezS-RW32uy4es/view

Virtual sərgilər yaradılma texnologiyasına görə müxtəlifdir: slaydlarla videorejimdə, dok., pdf formatlarında və avtomatlaşdırılmış kitabxana sistemində, sadə Pover Point proqramından istifadə etməklə, HTML formatında saytda yerləşdirməklə hazırlanır. Nümayiş etdirilən materialların təqdim edilməsi formasına görə virtual sərgilər qısa formatda - yalnız kitabın üz qabığı və biblioqrafik təsviri, standart formatda - kitabın üz qabığı, biblioqrafik məlumatlar, məzmunu, annotasiyası, geniş formatda - standart formata əlavə olaraq təqdim edilən kitabdan qısa fraqment, kitabın onlayn versiyasına hiperisnad (əgər varsa linkin yerləşdirilməsi), mənbənin özündə verilən müəllif haqqında əlavə məlumat, audio və video materiallarla müşayiət olunan biblioqrafik təsvir təqdim edilə bilər. Virtual kitab sərgisi hazırlayan zaman kitablar tam mətnləri və üz qabığı ilə birlikdə əlavə oluna bilər. Nümunə: Slayd 1: Sərginin başlığı; “Qibləgahı həqiqət olan şair- Qabil” virtual kitab sərgisi Slayd
2: Kitablar;

3. Haqqında yazılmış şeirlər:

Pandemiya ilə əlaqədar kitabxanada orta yaş qrup oxucular arasında keçirilən maraqlı tədbirlərdən biri onlayn şəkildə təşkil olunmuş **biblioqrafik icmal**dır. İcmalın məqsədi oxucunun əsərə qarşı marağını daha da artırmaqdır. Şairin kitablarından bir neçəsini seçib, onların haqqında ətraflı məlumat verilir. Şairin maraqlı əsərlərindən biri olan "Ömür həbləri" kitabının qısa icmalını təqdim edirik:




**Qabil. Ömür həbləri: Roman. - Bakı, Şirvannəşr. - 2005. -228 s.**

"Əziz oxucu, şairin "Ömür həbləri" kitabı əslində 1975-ci ildə qələmə alınmış və çap olunmuşdur. 2005-ci ildə bu kitab ların əlifbası ilə yenidən təkrar "Şirvannəşr"də çap olunmuşdur. Satirik və fantastik mövzuda yazılmış "Ömür həbləri" əsəri şairin cəmiyyətdəki ictimai ədalətsizlliklərdən, vicdansızlıqdan bəhs edir, insanlıqdan, kişilikdən çıxmışlara qarşı üsyan qaldırır. Əsərdə baş verən hadisələr olduqca maraqlıdır. Siz şairin təsvir etdiyi əfsanəvi İnkir-Minkir sorğularını, məhşər ayağına çəkilmiş vahiməli məhkəmələrini oxuduqda özünüzü möcüzəli bir aləmdə hiss edəcəksiniz. Şəhərin üzərində uçuşan ağ vərəqlərin, həmin o vərəqlər də yazılmış üç rəqəm və "ömür həbləri" kəlmələri insanlarda hansı dəyişikliklərə səbəb olacağının şahidi olacaqsınınz. Biləcəksininz ki, soyğunçular tərəfindən kürəyindən bıçaqlanmış Qismət, çörək növbəsinə dayanmış körpəli qadını oğrudan xilas edərkən gözünə lezviya çəkilmiş Ümid, saçları dəzgahın çarxına dolaşmış Sitarə ömür həblərini qəbul etdiyindən sağ-salamat yaşayırlar. Bütün bunlar möcüzədir və bu möcüzəni yaradan "ömür həbləridir". Ömür

həbləri əsərdə müəllifin fikirlərini, ittihamlarının söyləmək üçün bir vasitədir. Biz inanırıq ki, oxucular bu əsəri oxusalar çox bəyənəcəklər."

Həmçinin, kitabxanada şairin seçilmiş şeirlərindən orta və böyük yaş qrup oxucular üçün onlayn şəkildə virtual poeziya axşamı da keçirtmək olar. Kitabxanaçı oxuculara **Qabil. Seçilmiş əsərləri: Bakı: "Şərq-Qərb", 2004.-248s.** kitabını mütaliə etməyi məsləhət görür.

https://drive.google.com/file/d/1fLL8zIt0NVfzvjx6RKNezS-RW32uy4es/view




Bu kitaba çağdaş Azərbaycan poeziyasında öz səsi, öz sözü olan parlaq istedadlı şair Qabilin müxtəlif illərdə qələmə aldığı şeirləri daxil edilmişdir. Bir çox əsrlərinin mövzusunu şəhər həyatından götürsə də, qaldırdığı mühüm mənəvi-əxlaqi problemlər, izlədiyi yüksək məqsəd, təlqin etdiyi vətənpərvərlik və bəşərilik qayələri etibarilə Qabil şəhərli-kəndli Azərbaycanın, bütün elin – obanın şairidir. O, həmişə fəal həyat mövqeyində dayanıb, vətəndaşlıq borcunu öz üzərində hiss edib, ölkədə baş verən hər bir mühüm hadisəyə münasibətini bildirib. Həyat həqiqətlərinin realist təsvirinə, detalların təbiiliyinə böyük tələbkarlıqla yanaşan və müasir Azərbaycan şeirinin çox yayılan, çox təqdir edilən nümunələrini yaradan Qabilin gözəl bir şair kimi fəaliyyətinin bütün sahələrinə ilk əvvəl məhz poeziyasının zərif qanadları işıq salır.

Onlayn şəkildə təşkil olunmuş poeziya axşamında şairin virtual olaraq şeirləri səslənir, onun haqqında şairlər, yazıçılar, ədəbiyyatşünaslar çıxış edirlər. Oxuculara kitabxanaçı şairin ***"Tək-***

***tük”, “Üç nöqtə”, “Bu dünya”, “Həm adi, həm ali”, “Gətirmə”, “Məhəbbət deyil”, “Dünya”, “Əslində”, “Səhv düşəndə yerimiz”, “Mən göz yaşlarına dözə bilmirəm”*** və s. şeirlərini söyləməyi tövsiyə edə bilər.

Xalq şairi Qabilin həyat və yaradıcılığını oxuculara ətraflı tanıtmaq məqsədilə metodist **virtual şəkildə viktorina** təşkil edə bilər. Viktorinada aşağıdakı suallardan istifadə edə bilər: “Əziz və hörmətli oxucularımız, görkəmli xalq şairi Qabilin həyat və yaradıcılığı haqqında sizə suallar təqdim edirik. Sualları düzgün cavablandıran oxucu kitabxananın müdiriyyəti tərəfindən maraqlı kitablarla mükafatlandırılacaq. Odur ki, diqqətli olun!”

**1.**Şair sizin yaddaşınızda necə qalıb?

-Vətənpərvər şair kimi.

**2.**Şair hansı şeiri ilə daha çox sevilib?

-“Səhv düşəndə yerimiz”, “Paravoz”, “Mərsiyə” və s.

**3.**Dövlət mükafatına layiq olan əsərin adı nədir?

-“Nəsimi” poeması.

**4.**Hansı misralar şairindir:
“Sağlığında qiymət verin insanlara” yoxsa “Səhv düşəndə yerimiz”?

-“Səhv düşəndə yerimiz”

**5.**Şair daha çox rübai yazıb, yoxsa qəzəl?

- Rübai

**6.**“Xalqımı, millətimi gülləbaran eylədilər” misrası hansı şeirdəndir?

- “Mərsiyə”

**7.**“Diqqət, vətəndaş sərnişinlər! ... minik başlanır” şair hansı nəqliyyata minik başlanmasını nəzərdə tutur?

-“Ömrün gecə qatarı”na.

**8.**Xalq şairi Qabilin şeirlərindən bir neçəsinin adını çəkin. "Tək-tük", "Üç nöqtə", "Bu dünya", "Həm adi, həm ali", "Gətirmə", "Məhəbbət deyil", "Dünya", "Əslində", "Səhv düşəndə yerimiz", "Mən göz yaşlarına dözə bilmirəm", "Qarışdırma", "Təmizlik", "Güllələbaran eylədilər", "Nəsimi bazarında", "Məhəbbət deyil","Türkün qəbri", "Gedən yerim olaydı" və s.

**9.**Qabil dövlətimiz tərəfindən hansı mükafatlara layiq görülmüşdür?

-Qabil Xalq şairi adına layiq görülmüş, bir sıra fəxri ad və medallarla, Azərbaycan Respublikasının ali dövlət mükafatları "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunmuşdur.

**10.**Xalq şairi Qabilin ilk şeiri və ilk kitabının adını söyləyin.

-"Gəl baharım" adlı ilk şeiri 1944-cü ildə "Ədəbiyyat" qəzetində çap olunmuşdur. 1950-ci ildə isə "Səhər açılır" kitabı işıq üzü görmüşdür.

**Videokonfrans:** Vətəninə, millətinə tükənməz məhəbbəti olan Xalq şairi Qabil gərgin zəhməti və yaradıcılıq axtarışları, canlı həyat müşahidələri ilə xalqına vicdanla xidmət edib. Müstəqilliyimizin ilk illərinin ağır sınaq anlarında ürək yanğısı ilə yazdığı "Şəhid anası", "Qeyrət, a vətəndaşlar","Oldu", "Xəcalət", "Birini elə, birini belə", "Ümid sənədir ancaq, Azərbaycan əsgəri!" və digər siyasi lirika nümunələri ilə Qabil xalqın gözündə daha da yüksəlib. Xalq şairi Qabilin 95 illik yubileyi ilə əlaqədar olaraq kitabxanalarda yuxarı sinif şagirdləri ilə **"Müdrüklük poeziyası"** adlı **videokonfrans** keçirmək olar. Coğrafi və dil sərhədləri tanımayan videokonfransın təşkilində, metodist mühüm rol oynayır. Belə ki, mövzunun və ünsiyyət dilinin seçilməsi, iştirakçıların dəvət olunması, müzakirələrin təşkili və onlara yekun vurulması kimi təşkilati işlər birbaşa Elmi-Metodika şöbəsinə həvalə olunur.

Videokonfransın əsas üstünlüklərindən biri də iştirakçı tərkibinə, sayına, həmçinin, telekonfransın müddətinə məhdudiyyətin qoyulmamasıdır. Metodist konfransda çıxış edəcəyi mövzu üzrə ətraflı hazırlaşır. Onlayn konfransın keçirildiyi zaman müddətində metodist Xalq şairi Qabilin bədii və elmi-nəzəri irsi mövzusunda qələmə aldığı kitablarla iştirakçıları tanış edir. Sonra isə ədibin yaradıcılığından bəhs edən slayd iştirakçılara təqdim olunur.

**1.**Giriş hissə (Qabilin həyat və yaradıcılığı haqqında məruzə)

**2.**Qabilin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və tarixçilərin çıxışları.

**3.**Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Qabilin seçilmiş əsərləri ətrafında məruzələri.

**4.**Konfransın yekunu.

**Onlayn müsabiqələr:** COVİD-19 pandemiyasının yayılması səbəbindən ölkədə tətbiq edilən xüsusi karantin rejimi həyatın bütün sahələrində fövqaladə şəraitə uyğun, çevik davranmağı tələb edir. Bununla əlaqədar xüsusi karantin dövründə kitabxanalar müxtəlif onlayn layihələr və müsabiqələr təşkil edə bilərlər. Bütün bunları nəzərə alaraq uşaq və yeniyetmələrdə mütaliə mədəniyyətinin formalaşması, həmçinin onların intellektual səviyyələrinin yüksəldilməsi məqsədi ilə Qabilin yubileyi ərəfəsində həyata keçirilən digər layihələrdən biri də internet vasitəsilə onlayn müsabiqələrin təşkili hesab oluna bilər. Metodist məktəbli uşaqlar arasında Qabilin qələmə aldığı əsərlər əsasında maarifləndirici mövzuda **rəsm, inşa, şeir, oxu müsabiqələri** keçirə bilər. Müsabiqələrin keçirilməsində əsas məqsəd uşaq və gənclərin, eləcə də geniş əhali kütləsinin ədibin yaradıcılığı mövzusunda maariflənmə işini təmin etməklə yanaşı, onların poeziyaya olan marağını artırmaqdır. **"Qabilin sənət dünyası"**

adlanan inşa müsabiqələri onlayn şəkildə ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilə bilər. Müsabiqə zamanı kitabxanaçılar təhsil müəssisələri ilə birlikdə müsabiqənin mövzusunu, daha sonra isə müsabiqədə iştirak edəcək şagirdlərin sayını müəyyənləşdirməlidirlər. Müsabiqəyə bir qayda olaraq əvvəlcədən müəyyən olunmuş mövzuya uyğun inşalar təqdim oluna bilər. Müsabiqəyə təqdim olunan inşaların məktəb müəllimləri və metodistlərdən yaradılmış münsiflər heyəti tərəfindən müəyyən olunmuş meyarlar əsasında yoxlanılması tövsiyə olunur. Bu zaman mövzunun tam əhatə olunması, tərbiyəvi əhəmiyyəti, mövzuya şəxsi münasibət və s. xüsusiyyətlər nəzərə alınmalıdır. Müsabiqələri təşkil edən zaman əvvəlcə müsabiqənin keçirilməsi haqqında sosial şəbəkələrdə, kitabxananın saytında və yerli mətbuatda elan yerləşdirilməli, müsabiqənin şərtləri, keçiriləcəyi tarix və ünvan göstərilməlidir.

**Nümunə:** "Milli ruh və mənəviyyatımıza işıq salan əbədiyaşar sənətkar Qabil: "İnşa müsabiqəsi Elan ___ rayon (şəhər) F.Köçərli adına Respublika Uşaq Kitabxanası ___ rayon (şəhər) __ saylı orta məktəblə birgə məktəbin 5-9-cu sinif şagirdləri arasında inşa müsabiqəsi elan edir. Müsabiqənin tələb və şərtləri: İnşa yazısı onun məzmununu əks etdirən adı daşımalı, mövzu müfəssəl əhatə olunmalıdır; İnşa özündə Qabilin Azərbaycan ədəbiyyatındakı əvəzolunmaz yeri haqqında məlumatları əks etdirməlidir; İnşa yazısının həcmi 5 səhifədən artıq olmamalıdır; İnşa yazısı Azərbaycan, rus, ingilis dillərdə yazıla bilər; İnşanın titul vərəqində (və ya sonunda) müsabiqədə iştirak edənin soyadı, adı, atasının adı, təhsil aldığı orta məktəbin nömrəsi, sinfi və əlaqə telefonları qeyd olunmalıdır; Müsabiqədə iştirak etmək üçün kitabxananın e-mail E-mail: info@clb.az ünvanında onlayn

qeydiyyatdan keçmək lazımdır. Müsabiqənin qalibləri münsiflər heyəti tərəfindən seçilərək qiymətləndiriləcəkdir. Müsabiqədə 1-ci, 2-ci, 3-cü yerləri tutmuş qaliblər diplom və mükafatlarla, müsabiqədə fərqlənən şagirdlər isə həvəsləndirici hədiyyələr ilə mükafatlandırılacaq.

Xalq şairi Qabilin yaradıcılıq yolunu oxuculara daha yaxından tanıtmaq məqsədilə yuxarı sinif şagirdləri ilə **“Qibləgahım – həqiqət, səcdəgahım – sədaqət, Daş tərəzim - ədalət, qətiyyətim – cəsarət**” adlı **oxucularla virtual söhbət** təşkil etmək olar. Söhbətə ədəbiyyat müəllimləri, Qabilin yaradıcılığını tədqiq edən ədəbiyyatşünaslar, yuxarı sinif şagirdləri, filologiya fakultəsinin tələbələri onlayn olaraq qatılırlar. Söhbətin əvvəlin-də metodist iştirakçılara Xalq şairi Qabil haqqında ətraflı məlumat verir.

**Metodist:** Xalq şairi Qabilin yaradıcılıq yoluna nəzər saldıqda onun mövzu rəngarəngliyinə, poetik duyğularına heyran olursan. Qabil ədəbiyyatımızda gözəl sənət nümunələri yaradıb. Ömrünün çox hissəsini yaradıcılığa, poeziyaya həsr edən şairin “Səhv düşəndə yerimiz”, “Günəşli havalarda”, “Gedən yerim olaydı”, “Təmizlik” şeirləri dillər əzbəridir. Bu şeirlər şair ürəyindən axıb gələn əsərlərdir. “Səhv düşəndə yerimiz” şeirini oxuduqda qəlbimizdə,ruhumuzda durğunluq pozulur, vətəndaşlıq hislərimiz baş qaldırır, “Göyçay narı”nı oxuyanda torpağımızın yaratdığı zərif mocüzə ilə öyünürük. “Yarpaqlar tökülür”, “Tramvay parka gedir”, “Şofer vəsükut”, “Pullar və düşüncələr”, “Sevdalı fikirlər” və s. şeirlərin süjetində də qəribəlik vardır. Şair yaradıcılığında tarixi keçmişimizə, zəngin mədəniyyətimizə ustalıqla müraciət etmişdir. Böyük şairimizin Nəsimiyə həsr etdiyi “Nəsimi” poeması ədəbiyyatımıza dəyərli poetik əsər kimi daxil olmuşdur.

“Qabilin Nəsimi haqqında yazdığı mənzum roman mənim yaxşı xatirimdədir. Doğrudan da o, çox böyük iş idi və Qabil bu işi gördü. Bu həqiqətən dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairin, yazıçının işi deyil. Qabil bunun öhdəsindən gəldi.” Şair haqqında bu cümlələri ulu öndər Heydər Əliyev demişdir.

**Ədəbiyyatçı:** Xalq şairi Qabilin yaradıcılığı rəngarəng və çoxşaxəlidir. Onun əsərlərində həm lirik ovqata köklənmiş məhəbbət və əsrarəngiz təbiətin tərənnümü, həm də fərdi psixoloji durumdan doğan poeziya nümunələri istənilən qədərdir. Lakin o, eyni zamanda müasir dövrün qayğıları ilə yaşayan, xalqının, millətin problemlərini bir an da olsun nəzərdən qaçırmayan, zamanın nigaran suallarına cavab verməyə çalışan yüksək vətəndaş mövqeli şairdir. Bəli, Qabil yaradıcılığının hər bir nümunəsi mükəmməldir. Ancaq elə söz inciləri də var ki, kamillik nümunəsi sayılmağa layiqdir. Yaradıcılığının şedevri sayılan bu nümunə uşaqdan-böyüyə hər kəsin dilinin əzbəri, ürəyindən xəbər verən “Səhv düşəndə yerimiz...” şeiridir. Başdan ayağa nəsihətlərlə dolu olan bu şeir Qabilin iç dünyasının insana, bəşəriyyətə, haqq-ədalətə laqeyd qala bilməməsinin bədii təzahürüdür.

Duman dağı dolanar,
Qiyamət olar.
Duman yola sallanar,
Müsibət olar.
Müsibət oluruq biz,
Səhv düşəndə yerimiz...



Qabilin lirikasında olduğu kimi, rübailərində də vətənə, yurda sevgi hissi böyük məna daşıyır. "Rübailər" kitabında zəhmət adamlarının mənəvi aləmi, qurub-yaratmaq həvəsi, sabaha inam, sənət, sənətkarlıq və s. məsələlər hikmətamiz şəkildə əks olunub. Bu rübailərdə zəmanəmizin bir çox problemləri haqqında şairin ürəkdən gələn və oxucuların da ürəyində olan fikirləri vardır. Sülh, dünyamızın əmin - amanlığı, insan azadlığı, dostluq, ülvi məhəbbət, yaşamaq eşqi və s.bir çox humanist fikirlər öz bədii ifadəsini tapmışdır. Qabil əsl sənətkar olaraq zəmanəsinin müvəffəqiyyətlərini və çətinliklərini qələmə almışdır. Şairin "Rübailər" kitabında gözəl sənət nümunələri kimi oxucunu razı salan və məsəl kimi dillərə düşən rübailəri az deyil.

Möcüzə baş versə, dirilsə əgər
Min il bundan əvvəl ölən xəbislər.
Yenə görəcəksən həmən - həməndir,
Xasiyyət qəbirdə dəyişir məgər?

Bazarın da olsun, malın da olsun,
Üzməyi də bacar, salın da olsun.
Həm ağlın, tədbirin, həm istedadın,
Həm bəxtin, naxışın, xalın da olsun.

Həyat al-əlvandır, min butası var,
Düzü-əyrisi var, toyu-yası var.
Həm yaşıl bağları, qarlı dağları,
Həm də çirkab dolu min çalası var.

Dəniz dərin yerdə yaşıla çalır,
Dərin düşünənlər sükuta dalır...
Dayaz dəniz ilə dayaz adamı
Kim eyninə alır, kim saya salır?

Həsrətin qəlbimdə yanıq lalədir,
Göz yaşım ləbaləb bir piyalədir.
Piyaləyə görə Xəyyam deyir ki,
Qabilə bir baxın, Xəyyamlıq edir.

**Onlayn İştirakçı:** Qabil əsl vətənpərvər şair idi. Xalqımızın milli-azadlıq hərəkatı tarixinə qanlı, həm də ən şərəfli səhifə kimi daxil olan 1990-cı ilin 20 yanvar gecəsi vətənpərvər şairin yaradıcılığını daha da zənginləşdirdi. Həmin gecə Qabil Azərbaycan xalqının əbədi ağrısı olan "Mərsiyə" şeirini yazdı. Şair mərsiyəsində xalqın vulkan tək püskürən qəzəbini, min yerdən qan fısqıran yarasının dəhşətli ağrısını, Allah dərgahına qədər boy verən ah-naləsini özünəməxsus böyük vətəndaşlıq yanğısı ilə əks etdirmişdir. O, "Mərsiyə" şeiri ilə 20 Yanvar, qanlı Şənbə gecəsinin həqiqətini təfərrüatı ilə açıqlayıb, əbədi yaddaşlara köçürüb. Şeiri oxuduqda Qanlı Yanvar qırğınını, düşmənlərin törətdiyi facıəni, gətirdiyi qəm-kədəri dərindən duya bilirsən.

Gecəni atəş ilə qırmızı qan eylədilər,
Xalqımı- millətimi gülləbaran eylədilər.

Şairin "Mən göz yaşlarına dözə bilmirəm" şeirində də 20 yanvar dəhşətlərini, ağrılarını bir daha bəyan etmişdir.

Mən göz yaşlarına dözə bilmirəm,
Yağanda Şəhidlər xiyabanına.
Bu ağrı-qaralı mərmər dastana,
Bu gülləri məşəl daş gülüstana,
Bir busə dadmayan neçə oğlana
Ağlama, döz görüm daşsa da qəlbin,
Ağla ibrətamiz bir ehtişama.
Mən göz yaşlarına dözə bilmirəm
Analar saç yola məzar başında.
Yox daha mərsiyə yaza bilmirəm
Cavanlar qırılsa nakam yaşında

Xalq şairi Qabil həm insaniyyəti ilə, həm də hikmət dolu əsərləri ilə unudulmazlıq qazanmışdır. Uşaqdan-böyüyə hər kəs onu tanıyır, sevir, uzaqdan-yaxından yaradıcılığı ilə maraqlanır. Uşaq şairi kimi tanınmasa da balaca oxucularını da unutmayan xalq şairi indi özü ürəklərdə daim xatırlanır, anılır. Onun "Sözün qısası" adı altında yazdığı silsilə şeirlər qısa, amma kəsə deyilmiş ən dəyərli şeir nümunələridir. "Deyil", "Söz", "İynə-sancaq", "Kin", "Qar yağır", "Deməli", "Dayı-əmi", "İnsan", "Dəyişmir", "Təmizlik", "Pul", "İnam", "Zırrama", "Yaradardım", "Ehtiyac","Sına" və s. kimi bəzisi iki misradan ibarət olan şeirlər də əslində görürsən ki,bir dastan yatır. Bax budur Qabil şeiri, Qabil hikməti... Budur onu unudulmaz qılan, həmişə fərqləndirən, ayıran...

**Ədəbiyyatçı:** Qabil həm də lirik şairdir. "Gətirmə", "Küləkli havalarda, yağışlı havalarda","Yarpaqlar tökülür", "Gedən yerim olaydı", "Suqovuşanda" kimi sənət inciləri hər kəsin qəlbini, ruhunu oxşayır. Onun məhəbbət şeirləri də rəngarəngdir. Bütün

çalarları ilə orijinaldır, özünəməxsusdur. “Tufan səsi” şeiri məhz belə şeirlərdəndir:

Gözlərimi gözlərindən
Çəkməyirəm bircə an.
Sənə baxan gözlərimi
Qırpmaz nə yel, nə tufan
Nə sən mənə, nə mən sənə
Bir kəlmə söz demirik,
Yox, yox, biz ki, danışırıq...
Nə sükut? Düz demirik.

**Metodist:** Qabil uşaq şairi kimi məşhur deyil. Lakin onun uşaqlar və yeniyetmələr üçün əsərlərindən bəhs edən “Nağaraçı” adlı xüsusi kitabı var. Bu kitabda toplanmış şeirlər şairin uşaq psixologiyasına yaxından bələd olduğunu göstərir. Belə ki, onun şeirləri uşaqların qavrayış imkanlarına uyğun yazılmaqla yanaşı həm də sadə bədii ifadə vasitələri ilə zəngindir. Elə bu səbəbdən də uşaq şeirlərinin az olmasına baxmayaraq Qabil azyaşlılar tərəfindən də çox sevilir.

**Nağaraçı**

Oğlan çaldı nağaranı,
Səs götürdü mağaranı:
Dam daram, dam dam daram.
– Ey, yuxuma qatma haram!
Nağaraçı uşaq idi,
Amma, yaman qoçaq idi.
Dedi: – Kimsən, görün gözə!
Qızışıram təzə-təzə.

Xoşum gəlir mağaradan,
Gör necə yaxşı səs çıxır
Mağarada nağaradan.
Uşaq yenə, qoçaq yenə
Yırğaladı, çırtmaladı,
Şillələdi nağaranı,
Vahiməli həmən o səs
Silkələdi mağaranı:
– Bir demişəm, bir də deyim:
Tərk elə tez mağaranı!
Üçüncüdə gəlib sənin
Partladaram nağaranı.
Oğlan qorxudan əsmədi,
Qoltuğunda nağarası
Mağaradan sürüşməyə
Hövllənib tələsmədi.
Dişi ağara-ağara
Çaldı özüyçün nağara

Qabilin yaradıcılığı müasir Azərbaycan ədəbiyyatını zənginləşdirməklə, onun parlaq səhifələrindən birini təşkil edir. Fəal həyat mövqeyi və hadisələrə obyektiv münasibəti ilə seçilən şair ana dilimizin bədii imkanlarından məharətlə istifadə edərək, poeziyanın mövzu baxımından rəngarəng nümunələrini yaratmışdır. Şairin milli ədəbi irsimizin ənənələrindən qaynaqlanan və müasir ədəbi prosesləri özündə əks etdirən, lirizmi və humanizmi ilə səciyyələnən şeirləri Azərbaycan oxucusu tərəfindən həmişə rəğbətlə, sevilə-sevilə oxunmuşdur. Onun poetik təfəkkürünün məhsulu olan və ədəbiyyatımızın müxtəlif janrlarını əhatə edən lirikası dilinin axıcılığı, rəvanlığı və milli koloriti ilə seçilir.

Qabilin xalqımızın keçmişindən, bugünündən bəhs edən, böyük təsir gücünə malik olan, həyat həqiqətlərinin realist təsvirini verən və ciddi ictimai-əxlaqi problemlər qaldıran yaradıcılığı insanlarımıza vətəndaşlıq hisslərinin və mübarizlik ruhunun aşılanmasında mühüm xidmətlər göstərmişdir. Şairin əsərləri bir çox xalqların dillərinə tərcümə olunaraq, ölkəmizin hüdudlarından kənarda maraqla qarşılanmışdır. Dövrümüzün böyük şairi Qabil xalq tərəfindən sevilir və həmişə də seviləcək. Yüzlərlə şeiri dillər əzbəridir. Şairin əməyi dövlət tərəfindən də yüksək qiymətləndirib. O, "Xalq şairi" fəxri adına, "Şöhrət" ordeninə, "İstiqlal" ordeninə layiq görülüb.

Ustadın oğlu Mahirə yazdığı "Qarışdırma" şeiri də olduqca konkret, eyni zamanda dərin mənalı öyüdlər toplusudur:

Kobudluqla cəsarəti qarışdırma.
Yaltaqlıqla nəzakəti qarışdırma.
Mütiliklə sədaqəti qarışdırma.
Lovğalıqla ləyaqəti qarışdırma...

Bu cür nəsihət dolu şeir günümüzə verilmiş ən lazımlı töhvədir. Şair övladına dəyərləri dəyərsizliklə qarışdırmamağı, hər şeyi öz həqiqətilə yaşamağı bir ata olaraq nəsihət edir. Xəsisliklə qənaət, xəta ilə cinayət, zorbalıqla əzəmət kimi ziddiyyətləri bir-birindən ayıra bilməmək insanın həyatda tutacağı mövqeyini yanlış seçməyə gətirib çıxarır. Yanlış tutulan mövqe isə şairin özünün də dediyi kimi müsibətdir...

**Müdiriyyət:** Xalq şairi Qabil həmişə fəal həyat mövqeyində dayanıb. O yerdə ki, vətəndaşlıq borcunu öz üzərində hiss edib, çəkinmədən, hər hansı müqaviməti, tənqidi, tənbehi saya salmadan şax deyib. Doğrudan da, vətəndaş şair təkcə öz şeirlərində

deyil, bir sıra ədəbi – publisist yazılarında da ölkədə baş verən heç bir mühüm hadisəyə laqeyd qalmır. Nəyi isə təsdiq edir, fikir və duyğularını car çəkir. Qabil gözəl bir şairdir və fəaliyyətinin bütün sahələrinə hər şeydən əvvəl poeziyasının zərif qanadlarının sayə saldığını görürük. Onun hər bir əsərinin bir növ yaranma tarixi, tərcümeyi – halı var. Bu da müəllifin özünün canlı müşahidələrilə, onun başına gələnlərlə, haradasa qarşılaşdığı gözlənilməz hadisələrlə əlaqədardır. Şairi heç vaxt tərk etməyən çox zəngin, əlvan müşahidələr onun şeirlərinin ilk rüşeymidir. Qabilin əsərləri çağdaşı olan bir çox şairin əsərləri arasında seçilir, onun öz səsini, öz sənətkar mənliyini əks etdirir. Öz şeirinə müraciətlə, böyük təvazökarlıqla bu misraları yazdıran da elə onun əsərlərinin yüksək əyarına inam və etibarıdır:

Saysız şeir içində adi şeirsən,
Ancaq nə şərikin, nə ortağın var.
Böyük bir axında üzüb gedirsən,
Xırdaca gəmisən, öz bayrağın var.

Söhbətimi Xalq yazıçısı Anarın sözləri ilə tamamlamaq istərdim. “Qabili çox istəyirəm – təpədən-dırnağa şair olduğuna görə, dilimizin doğru-düzgün işlənməsinin sayıq keşikçisi olduğuna görə. “Nəsimi” poemasında, “Ömür həbləri” romanında, bir çox şeirlərində, son illərdə yazdığı şeirlərdə fəal vətəndaşlıq mövqeyinə görə. Qabili çox istəyirəm – bənzərsiz yumoruna görə, dadlı-duzlu zarafatlarına, lətifələrinə görə. Qabili çox istəyirəm – Qabilin yaratdığı “Məhəbbət deyil”, “Küləkli havalarda, yağışlı havalarda”, “Tramvay parka gedir”, “Yarpaqlar tökülür” və neçə-neçə, başqa-başqa şeirləri həqiqi sənət nümunəsi olduğuna görə.”

## Ədəbiyyat siyahısı

### Əsərləri

### Kitablar


**2002**

**1.**Nəsimi: poema. - Bakı : Şirvannəşr, 2002. - 500 s. .

**2004**

**2.Rübailər:** poeziya / Qabil; red. A.İsabayli; rəs. İ.Mehdiyev; ön sözün müəl. B.Azəroğlu. - Bakı: Şirvannəşr, 2004. - 280 s.

**3.Seçilmiş əsərləri:** poeziya / Qabil; ön sözün müəl. B. Nəbiyev; buraxıl. məsul Ə. Güləliyev; rəs. N. Əliyeva - Bakı: Şərq-Qərb, 2004 . - 248 s.

**2005**

**4.Ömür** həbləri: roman / Qabil; red. A.İsabəyli; kitabın üz qabığının rəssamı. İ.Mehdiyev; kitabın içindəki rəsmlər. G. Əlizadə, A. Məmmədov. - Bakı: Şirvannəşr, 2005. - 228 s.: rəngli foto, il.

**2007**

**5.Ömrün gecə qatarı:** Diqqət, vətəndaş sərnişinlər! Ömrün gecə qatarına minik başlanır / Qabil; red. A. İsabəyli. - Bakı: Şirvannəşr, 2007. - 304 s.: rəngli foto.

**2016**

**6.Seçilmiş əsərləri:** 2 cilddə / Qabil; baş red. S. Bektaşı; burax. məsul S.İsmayılova; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. - Bakı : Şərq-Qərb, 2016. - C.1.- 368 s.

**7.Seçilmiş əsərləri:** 2 cilddə / Qabil; baş red. S. Bektaşı; burax. məsul S. İsmayılova; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. - Bakı: Şərq-Qərb, 2016. – C.2. - 344 s.

*Kitablarda*

**2002**

**8.Çalsın Azərbaycan haray zəngini; Mərsiyə; Oldu; Çadırlara alışmayın; Ümid sənədir ancaq:** şeirlər / Qabil // Azərbaycan harayı. - Bakı: Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.23-32.

*Dövri mətbuatda*

**2016**

**9.Azərbaycan torpağı:** şeir / Qabil // Savalan. - 2016. - 2-15 avqust. - № 36. - S.5.

**10.Ümid sənədir ancaq, Azərbaycan əsgəri!**: şeir / Qabil // Azərbaycan müəllimi. - 2016. - 23 aprel. - № 15. - S. 3.

**2018**

**11.Mərsiyə:** şeir / Qabil // Kaspi. - 2018. - 20 yanvar. - № 12. - S. 12-13.

**Haqqında**

*Kitablarda*

**2003**

**12.Əslində:** Qabilin yaradıcılığı haqqında /F.Sadıq // Taleyin acığına. - Bakı: Çinar-Çap, 2003. - S.258-260.

**13.Küləkli havalarda, yağışlı havalarda:** Qabil haqqında /F. Sadıq // Taleyin acığına. - Bakı : Çinar-Çap, 2003. - S. 254-258.

**2007**

**14.Qabil (1926-2007)** //Müasir Azərbaycan ədəbiyyatı: dərslik. - Bakı: Bakı Universiteti nəşriyyatı, 2007. - C.2. - S.34-36.

**2008**

**15.Şeirimizin Qabil ucalığı** /N.Hacızadə //Yada düşdü. - Bakı: Araz, 2008. - S.428-441.

**2013**

**16.Diri adam - Qabilimiz** /T.Qurban //Ömür yolları. - Bakı: "OL" nəşriyyatı, 2013. - S.177-185.

***Dövri mətbuatda***

**2016**

**17.Xalq şairi Qabilin 90 illiyinə həsr olunmuş xatirə gecəsi keçirilib** // Ədəbiyyat qəzeti. - 2016. - 1 oktyabr. - № 36. - S.6.

**18.Qabildən başqa Qabil yoxdur:** Qabil - 90 / V.Yusifli // Azərbaycan. - 2016. - № 9. - S. 23-29.

**19.Qabilin poeziyasında azad düşüncə, realist fikir və mübarizə ruhu vəhdət təşkil edir:** Qabil - 90 /T. Aydınoğlu // Xalq qəzeti. - 2016. - 1 oktyabr. - №215. - S. 11.

**20.Qabilli və Qabilsiz yubileylər** /M. Qabiloğlu // Mədəniyyət.az. - 2016. - № 9. - S. 12-15.

**21.Qəliblərdən uzaq Mahir Qabiloğlu:** [Xalq şairi Qabilin oğlu Mahir Qabiloğlu haqqında] / S. Rüstəmxanlı // Xalq qəzeti. - 2016. - 6 mart. - № 52. - S. 7.

**22.Şairin ədəbi portreti:** Şair Qabil - 90 / B.Xəlilov // Xalq qəzet. - 2016. - 12 avqust. - № 174. - S.5.

**23.Vətəndaş şairin 90 illik yubiley gecəsi:** Qabil obrazı yaddaşlarda həqiqəti söyləyən, haqsızlıqlara qarşı mübarizə aparan şair kimi canlanır /F.Hüseynov // Mədəniyyət. - 2016. - 30 sentyabr. - № 74. - S.3.

**2017**

**24.Mahir Qabiloğlu: Mən atamı şair kimi tanımaycaqdım:** [şair Qabilin oğlu ilə söhbət] /F.Balabəyli // Ədəbiyyat qəzeti. - 2017. - 29 iyul. - № 27. - S. 20-21.

**25.Xalq şairi Qabilin yeddicildlik külliyyatı çap olunub** // Xalq qəzeti. - 2017. - 17 dekabr. - №279. - S.6.

**26.Ötən illərin xatiratı:** [Xalq yazıçısı, şair Qabil haqqında] /M. Qabiloğlu // Xalq qəzeti. - 2017. - 4 aprel. - № 68. - S.10.

**27.Unudulmaz Qabilimiz** /V.Yusifli //Yada düşdü. - 2017. - № iyul-avqust-sentyabr 3(29). - S. 14-18.

**28.Yeddicildliyin həqiqətləri:** Qabil. Əsərləri. VII cilddə. "Adiloğlu Çap evi". 2017 /A. İsmayıloğlu //Ədəbiyyat qəzeti. - 2018. - 24 fevral. - № 7. - S.28.

**2018**

**29.Unudulmaz Qabilimiz:** Xalq şairinin özü və onun yeddi cildliyi haqqında /V.Yusifli //Azərbaycan. - 2018. - № 4. - S. 181.

**30.Yandırın çıraqları:** Xalq şairi Qabilin unudulmaz xatirəsinə /F. Nadir // 525-ci qəzet. - 2018. - 7 aprel. - № 61. - S.13.

**2019**

**31.Xalq şairi Qabilin "Nəsimi"si:** [İmadəddin Nəsiminin həyat və yaradıcılığından, fəaliyyətindən bəhs edən "Nəsimi" poeması haqqında] /B.Bərdəli //Ədəbiyyat qəzeti. - 2019. - 2 noyabr. - № 38. - S. 26-27.

**2020**

**32.Unudulmaz Qabilimiz:** "Köhnə kişilər" silsiləsindən / V. Yusifli //Ədəbiyyat qəzeti. - 2020. - 29 avqust. - № 34/35. - S. 27.

**Qibləgahı həqiqət olan şair - Qabil**
(metodik vəsait)

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**